## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



Cəlal Allahverdiyev, Filologiya üzrə fəlsəfə doktoru, dosent

# İrəvandakı milli mətbuatımızın "Zəngi"si



Zəngi gəzetəsi

BIR MAJ BAJRAMLNA HAZLRLA3 MALL

*(Əvvəli ötən sayımızda)*

Hətta qəzet Ermənistan Xalq Maarif Komissarlığının və müvafiq qorumların erməni məktəblərindən fərqli olaraq azərbaycanlı məktəblərinə olan bu laqeyd münasibəti kəskin tənqid edirdi. Qəzet öz səhifələrində partiyanın, hökumətin qarşıya qoyduqları vəzifələri də müntəzəm işıqlandırırdı. İstər İrəvanda, istərsə də başqa şəhərlərdə çıxan dövri mətbuat aydın idi ki, sovet mətbuatı idi. Buna görə də mətbuat yalnız kommunist-bolşevik ideologiyasını təbliğ etməli və bu prinsipdən kənara çıxmamalı idi.

"Zəngi" qəzeti İrəvan Yeni Türk Əlifba Komitəsinin fəaliyyətini, yeni əlifba islahatı ilə bağlı məsələləri müntəzəm işıqlandırıb. Qəzetdə 1926-cı il fevral ayının 22-də 163 nəfər nümayəndənin iştirakı, B.Əfəndiyevin sədrliyi və Səməd Ağamalı oğlunun fəxri sədrliyi ilə İrəvan YTƏK-in konfransının keçirildiyi və konfransın işi ilə bağlı öz səhifələrində geniş məlumat dərc etmişdi.

"Zəngi" qəzetində Türkoloji Qurultayın yekunları 7 səs əleyhinə, 101 səs lehinə olmaqla yeni əlifbanın qəbul edilməsi ilə bağlı yazılar da öz əksini tapıb. Onu da qeyd edək ki, Türkoloji Qurultayda iştirak etmək üçün Bakıya gəlmiş B.Əfəndiyev burada olarkən "Zəngi" qəzetini bütünlüklə latın əlifbası ilə çap etmək üçün Səməd bəy Ağamalı oğlunun və başqalarının köməyi ilə 15 pud latın şriftl çap dəzgahı alaraq İrəvana gətirib.

"Zəngi" qəzeti Türkiyədə də yeni əlifbanın həyata keçirilməsi işinə Atatürkün bilavasitə rəhbərlik etməsi haqqında da geniş yazılar dərc edirdi. Belə xəbərlərin birində deyilir: "Bu günlərdə Mustafa Kamalın sədrliyi ilə jurnalist nümayəndələrin, ictimai işçilərin, mütəxəssislərin iştirakı ilə yeni əlifbanın qəbulu üçün seçilmiş komissiyanın məruzəsi eşidildi və qəbul olundu".

Əslində "Zəngi" qəzeti Türkiyədə latın əlifbasına keçidin dövlət səviyyəsində müdafiə edildiyini yazmaqla İrəvanda bu işin sürətlənməsinə kömək etmiş olurdu. Araşdırmalardan məlum olur ki, "Zəngi" qəzeti latın əlifbasına keçid uğrunda mübarizəni sona qədər davam etdirib, Qərbi Azərbaycanda latın qrafikalı yeni əlifbaya keçirilməsində əvəzsiz xidmətləri olub. "Zəngi" qəzeti fəaliyyəti dövründə öz səhifələrində yeni türk əlifbası ilə bağlı yazılara geniş yer verirdi. Qəzet səhifələrində ərəb əlifbasının tənqidinə, Azərbaycan dilinin sağlığı uğrunda mübarizəyə həsr olunmuş S.Ağamalı oğlunun "Yeni əlifba ilə silahlanacağıq", M.Nəzminin "Türk dili və latın hürufatı" və s. bu kimi xeyli sayda məqalələr dərc olunmuşdur. İrəvan ziyalıları B.Əfəndiyev, M.Kazımov, M.Mirbabayev, Əkbər Rizayev, Q.Fəhradov, M.Mirbağırov və başqaları yeni əlifba islahatı ilə bağlı "Zəngi" qəzetində müntəzəm çıxış edirdilər.

İrəvanda mədəni inqilabın eninə və dərininə inkişaf etməsində böyük və danılmaz xidmətləri olan İrəvan Türk Qadınlar Klubunun da fəaliyyətini "Zəngi" qəzeti müntəzəm öz səhifələrində işıqlandırırdı. Yeri gəlmişkən, onu da qeyd edim ki, Qadınlar Klubu İrəvanda Azərbaycan mətbuatının inkişafına da öz töhfəsini verir. Klub nəzdində qadınlardan ibarət yaradılmış gənc müxbirlər dərnəyinin fəalları "Zəngi" qəzetində müxtəlif mövzulara aid məqalələr dərc etdirir, özlərinin mətbuata olan maraq və həvəslərini daha da artırırdılar. Bu da öz növbəsində gənc qadın müxbirlərin müəyyən təcrübə əldə etmələrinə kömək edirdi. Gənc müxbirlər dərnəyinin fəal üzvləri mətbuat sahəsində müəyyən təcrübə əldə etdikdən sonra onlardan bəziləri "Zəngi" qəzetinin aparıcı müxbirlərinə çevrilirdilər. Bülbül Kazımova, Fatma Əfəndiyeva, Ənvər Rizayeva, Şaman Süleymanova, Mənzərə Axundova, Qeyis Münşiyeva, Nabat İbrahimova, Siddiqə Babayeva, İ.Bağırova və başqaları "Zəngi" qəzetinin ən aktiv qadın müxbirləri idi. Bu fədakar qadınların İrəvanda Azərbaycan mətbuatının təbliğində və inkişafında da böyük xidmətləri olub.

Sosial həyatın elə bir sahəsi yox idi ki, "Zəngi" qəzeti həmin sahəyə nüfuz etməsin. Azərbaycan dilində yeganə mətbuat orqanı olan bu qəzet İrəvanda yaşayıb-yaradan azərbaycanlı ziyalılar üçün bir növ tribuna rolunu oynayırdı.

Araşdırmalardan məlum olur ki, "Zəngi" qəzeti 29 noyabr 1924-cü ildən 1927-ci ilin dekabr ayının sonuna qədər həftədə bir dəfə nəşr olunub. Amma qəzetin gündən-günə artmaqda olan nüfuzu, geniş oxucu kütləsinin ruporuna çevrilməsi, onun kiçik formatda, həftədə bir dəfə çıxması, azərbaycanlı əhalinin mətbuata artan tələbatını ödəyə bilmirdi. Bu tələbat qəzetin böyük formatda gündəlik çıxmasını labüd etsə də, redaksiyanın kollektivi tərəfindən EK(b)MK-ya edilən müraciətlər öz həllini tapmırdı.

Amma buna baxmayaraq 1926-cı ilin əvvəllərindən qəzetin məsul redaktoru vəzifəsində çalışan Mustafa Hüseynovun siyasi və milli iradəsi sayəsində 1928-ci ilin yanvar ayının 1-dən həftədə iki dəfə 4 səhifədən ibarət olmaqla nəşr edilməyə başlayır. Hər həftə bazar və cümə günləri çıxan "Zəngi" qəzetinin nüfuzu getdikcə daha da artır. 1924-cü ildə qəzetin tirajı 400, 1926-cı ildə 550, 1927-ci ildə 1040, 1928-ci ilin martında 2400 olur. Qəzet azərbaycanlı oxucular tərəfindən böyük maraq və rəğbətlə qarşılandığından tirajının sürətlə artmasına müvəffəq olurdu.

Qəzet tirajının artırılmasında xüsusi səy göstərmiş şəxslərin şəklini öz səhifələrində verməklə onları müxtəlif hədiyyələrlə də mükafatlandırırdı. Qəzet öz səhifələrində İrəvan qəza icraiyyə komitəsinin təlimatçısı Əli Şabanovun 7 illik Türk məktəbinin və gecə savad kurslarının müəllimi Əsgər Əsgərzadənin, Məhəmməd Əzimzadənin "Zəngi"nin abunə topanışında fəal iştirak etdiklərini xüsusi qeyd edir.

İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" qəzetinin azərbaycanlı kütlələri arasında yayılmasında və tirajının artırılmasında və İrəvan Türk Pedaqoji Texnikumunun müəllim və tələbə heyəti çox böyük rol oynamışdı. "Zəngi" qəzetinin ən aktiv müxbirləri və təbliğatçıları da məhz bu təhsil ocağının müəllim və tələbələri idi. Müəllimlərdən Mehdi Kazımov, Ələşrəf Bayramov, Miryusif Mirbabayev, tələbələrdən Tağı Camalov, Adil Axundov, Musa Qafarov, Mirzə Beşirov, Abbas Tahir, Abdulla Mirzəyev, Əbülfət Rəhimov, Nəriman Fəxri, Mirzə Mirzəyev, Murad Tağıyev, Paşa Makinski və başqaları "Zəngi" qəzetinin ən fəal müxbirləri idi. "Zəngi" qəzetinin Azərbaycanlı Pedaqoji Texnikumunda 40-dan artıq müxbiri var idi.

Bütün bunlara baxmayaraq "Zəngi" qəzeti erməni şovinist dairələri tərəfindən çoxlu məhrumiyyətlərlə üzləşməli olurdu. Qəzetin redaksiyasının binası olmadığından ilk vaxtlar "Azsaylı xalqlar" şöbəsinin idarəsində kiçik bir otaqda yerləşirdi. Redaksiyanın daimi binası olmadığı üçün ünvanlar tez-tez dəyişir, kağız problemi ortaya çıxır, həm də onun abunəçi məsələsi çox vaxt probləmə çevrilirdi. Mətbu orqanın bütün bölgələrdə Uluxanlıda, Ağbabada, Vedibasarda, Üçmüədzində, Basarkeçərdə, Qaraqoyunluda və digər yerlərdə müxbir məntəqələri fəaliyyət göstərirdi. Bölgələrdə isə mətbuat yayım şöbələrinə əsasən ermənilərin təyin olunması qəzetin abunəçiləri arasında xeyli narazılıq törədir və haqlı iradlarına səbəb olurdu. Burada erməni şovinist dairələrinin əsas məqsədi azərbaycanlı oxucunu anadilli mətbuatla canlı təmasdan məhrum etmək idi. Ermənilərin yaratdıqları maneələrə baxmayaraq azərbaycanlı oxucular kütləvi şəkildə qəzetə abunə yazılmalarını davam etdirirdilər. Bu isə qəzetin dərin məzmunlu və oxunaqlı çıxması üçün onun fədakar kollektivini daha da ruhlandırırdı. Amma redaktordan tutmuş mürəttibə qədər hamı fədakarlıqla çalışır, əlindən gələni edirdi ki, qəzet müntəzəm nəşr olunsun. Bunun üçün redaksiya heyəti Bakı, Naxçıvan, Şəki və başqa şəhərlərdən də abunəçilər cəlb edirdi. Məsələn, "Zəngi" qəzeti "Həlli çatmış məsələ" rubrikası adı altında "Şərq qapısı" (Naxçıvan), "Şəki fəhləsi" (Şəki) qəzetlərinin işi haqqında və onların məqalələrini təkrar verirdi. Hər üç qəzet "Gənclər səhifəsi" açaraq bir-biri ilə əlaqə yaradırdılar. Bu ənənəni sonrakı illərdə də qəzetlər davam etdirirdi. "Zəngi" qəzeti Bakıda "Kommunist", "Yeni yol", Türkiyədə "Cümhuriyyət", "Hakimiyyəti-milliyə" və müxtəlif şəhərlərdə, Rusiyada nəşr edilən "Pravda", "Zarya Vostoka" və s. qəzetlərdəki aktual məqalələri çap etməklə İrəvan ziyalılarını elm, maarif, mədəniyyət sahəsində, o cümlədən dünyada və müxtəlif ölkələrdə gedən proseslərə öz oxucularını tanış edirdi. Digər tərəfdən isə qəzet müxtəlif problemlərə həsr olunmuş məqalələri öz səhifələrində çap etməklə həm də oxucularının intellektual inkişafına kömək etmiş olurdu.

"Zəngi" qəzeti 1927-ci ildə İrəvan yazıçılar cəmiyyətinin nəzdində yaradılmış azərbaycanlı bölməsinin ətrafında toplaşan ədəbi qüvvələrin yaradıcılıq istiqamətlərinin müəyyənləşməsinə və inkişafına da öz təsirini göstərirdi. İrəvanda Azərbaycan poeziyasının aparıcı qüvvələri olan Nəriman Fəxri, Əbülfət Rəhimov, Adil Axundov, Abbas Tahir, Telman Nəzərli, Əli Əliyev, Cəlal Sərdar və başqa gənc şair və yazıçıların bədii nümunələrini öz səhifələrində işıqlandırırdı. Bu da mövcud dövrün ədəbi proseslərini izləmək və öyrənmək baxımından imkan verir. Qəzetin səhifələrində teatr tamaşaları haqqında resenziyalar da öz əksini tapırdı.

"Zəngi" qəzeti Azərbaycanla əlaqələrə çox böyük önəm verirdi. Buna görə də bu qəzet ilk növbədə Naxçıvanda özünə geniş və daimi oxucu auditoriyası tapmışdı. Bakıda Məhəmməd Zəki, Naxçıvanda Qulam Səfərov, Şərurda İbrahim Qazıbəyov, Ordubadda Səfa Əylisli, Gəncədə isə Məhərrəm Əliyev qəzetin ən fəal müxbirləri və təbliğatçıları idilər.

1928-ci ildə Naxçıvan hökumət kinoteatrında 23, istehlak cəmiyyətində 83, Ordubadda 27 nüsxə abunəçi var idi. Bu abunəçilər İrəvanda və bütün Ermənistanda baş verən hadisələrdən xəbərdar olurdular. Bundan əlavə naxçıvanlılar özləri də bu qəzetin daimi müxbirləri idilər. Başqa sözlə, naxçıvanlılar da öz növbəsində öz problemləri haqqında qəzetə yazır və "Zəngi"nin köməkliyi ilə həmin problemləri həll edirdilər.

Getdikcə Cənubi Qafqazda aparıcı mətbuat orqanlarından birinə çevrilən bu qəzet 1928-ci il dekabr ayının 31-nə kimi "Zəngi" adı ilə fəaliyyət göstərib. Müxtəlif vaxtlarda B.Əfəndiyevin və M.Hüseynovun redaktorluğu ilə işıq üzü görən "Zəngi" qəzeti fəaliyyəti dövründə öz vəzifəsini şərəflə yerinə yetirməyə çalışıb, ictimai-siyasi və mədəni həyatımızın salnaməsi olub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub